«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 11 dekabr (Çərşənbə günü) tarixli 62-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Çaharşənbə, 7 rəbiüləvvəl sənə 1337.
11 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

2-ci iclas

Dekabrın 10-u saat 12-yə təyin edilmiş olan 2-ci iclas, saat bir tamam-da doktor Həsən bəy Ağayevin sədarə-tilə açılır. Diplomatlar lojasında Gürcüstan Hökumətinin siyasi nümayəndə[si], Gürcüstan Daxiliyyə naziri müavini və heyəti-əsgəriyyə [hərbi nümayəndəlik] üzvü əyləşmişlərdir. Tamaşaçı çoxdur.

Sədr Məclisi-Məbusanın 2-ci iclasını açılmış elan edərək məsailiyövmiyyəni [gündəlik məsələləri] bu qərar ilə xəbər verir:

1. Son günlər varid olmuş təbrik məktub və teleqrafları;
2. Fraksiyaların bəyannamələri;
3. Nitqlər iradı [nitq söylənməsi] nizam qaydası.

Bundan sonra sədr cənabları son günlər zərfində bir çox təbrik teleqraf və məktubları varid olduğunu [gəldiyini] bəyanla, əvvəl Dağıstan Şurası tərəfindən göndərilmiş məktubu oxuyur.

Mustafa bəy təklif edir Dağıstanlı qardaşlarımızın təbrikinə təbrik və təşəkkür məzmunlu cavab göndərilsin. Təklif qəbul olunur.

Sonra Salyandan, Cavad uyezdi rus və türklərindən, Suraxanı, Əmirhacıyan, Nügədi və sairə fəhlə və kəndlilərindən, Bakıda "İttihadi-iraniyan" və "Səadət" cəmiyyətlərindən və bir çox sairlərindən təbriknamələr alındığını bəyanla, fəqət bunları oxumaqla zehinləri işğal etmək istəməyərək təklif edir ki, Məclisi-Məbusan fraksiyalarının bəyannamələri eşidilsin.

İbtida [əvvəlcə] Türk Ədəmi-mərkəziyyət "Müsavat" firqəsi namından [adından] Rəsulzadə Məhəmməd Əmin bəy bəyannamə oxuyur. Bədəhu [ondan sonra] Sosialistlər İttifaqı tərəfindən Səfikürdiski və "Hümmət" tərəfindən Şeyxülislamov nitqlər söyləyərək ümum sosialistlər tərəfindən Pepinov Əhməd Cövdət bəyannamə oxuyur. Sonra "İttihad" firqəsi namından doktor Qarabəyli Qara bəy bəyannamə oxuyur. Bunlardan sonra əqəliyyət [azlıq] təşkil edən millətlərdən ibtida [əvvəlcə] gürcü nümayəndəsi Tsxakaya, yəhudilər tərəfindən Quxman, lehlər tərəfindən Vanseviç nitqlər söyləyib alman nümayəndəsi Kun bəyannamə oxuyur.

Nitqlər və bəyannamə qurtardıqdan sonra Türk Ədəmi-mərkəziyyət "Müsavat" firqəsi tərəfindən böylə bir formula təklif olunur:

"Bütün fraksiyaların bəyanatını eşitdikdən sonra Azərbaycan Məclisi-Məbusanı rəyasət vəzifəsini ifa edən rəis müavininə tapşırır ki, yeni hökumət təşkil etmək üçün kəndi mülahizəsinə görə bir rəis dəvət edib təsdiqini Məclisə, gələcək Heyəti-vükəla [Nazirlər Kabineti] təşkilini də məzkur [deyilən] rəisə təklif eyləsin."

Formula ittihadi-ara ilə [yekdilliklə] qəbul olunur.

Rəsulzadə Məhəmməd Əmin bəy təklif edir ki, Azərbaycan Parlamanının açılması xüsusunda bütün cahan parlamanlarına və əzcümlə [o cümlədən] qonşumuz Gürcüstan və Ermənistan parlamanlarına birər teleqraf çəkilsin. Gələcək iclasın nə vaxt təyin olunması rəisə mühəvvəl edilərək [tapşırılaraq] saat 4-ün yarısında iclas qapandı.

(Bəyannamələrin məzmunu və nitqlərin təfsili [təfsilatı] yarın.)

TELEQRAF XƏBƏRLƏRİ

İngilis rəsmi xəbəri

Dekabrın 8-ində "Allahverdi" və "Zərdüşt" gəmiləri Bəhri-Xəzərin şimali qismində üç dənə düşmən gəmisi görərək atışmışlardır. Nəticədə düşmən qaçmışdır. İngilis paroxodlarından bir neçəsi hazırda onları qovmaqdadır. Atışmadan düşmən gəmisinin birisi zədələnmişdir. Düşmən "Zərdüşt" gəmisini atəşə tutmuşdur. Məzkur [adı çəkilən] gəmi əhəmiyyətsiz zədələr almışdır.

Gürcü Teleqraf Acentəliyi

* Rus teleqraf acentəliyinin verdiyi məlumata görə, Müttəfiq dövlətlər Rusiyaya hücum etdikdə, Almaniyanı müttəfiq sifəti ilə cəlb etmək fikrindədirlər. "Forverts" qəzetəsi yazır ki, rus hökumətinin məkri [hiyləsi] Almaniya inqilabını bolşevizm inqilabına döndərməkdir. Qəzetə, alman inqilabçılarının bu işdən imtina edəcəklərinə inanır. Rusların həmişə dəvət edilmədən Almaniya işlərinə qarışması dəxi bunu göstərir ki, onlar Almaniya ilə Müttəfiq dövlətlər arasında durmağa çalışırlar. Müttəfiqlər Almaniya ilə sülh etmək istəyirlər. Lakin aşkar surətdə izhar edirlər ki, onlar eyni zamanda bolşevizmlə mübarizə edəcək olduqlarından, bolşevik almanlarla da sülh bağlaya bilməzlər.

* Kanuni-əvvəlin [dekabrın] birində Kopenhaqdan xəbər verirlər ki, "Svenska Daqbladet" mühafizəkar qəzetəsi İsveç Hökumətini mədəni məmləkətlər nəzərində nüfuzdan salmaq istəyən Rusiya ilə münasibat qət olunmasını [münasibətlərin kəsilməsini] tələb edir. Qəzetə Petroqrad ilə paroxod münasibatını [rabitəsini] vacib bilməyir. Münasibat qət edildiyi zaman Rusiya tərəfindən isveçlilər haqqında ediləcək mücazata [cəzalara] İsveç Hökuməti eyni ilə cavab verə bilər.

* Vyanadan teleqraf edirlər ki, qəzetələrin verdiyi xəbərlərə görə, Avstriyada monarxiya lehinə hərəkat şiddət etdiyindən, sabiq imperatora Avstriyadan çıxması təklif ediləcəkdir.

QARABAĞ ƏHVALI

Andranik[in] xürucu [çıxışı, hücumu] münasibətilə Hökumətə zeyldəki teleqraflar çəkilmişlərdir:

Cəbrayıldan:

Məlum edirəm ki, Zəngəzur uyezdi müsəlmanları böhranlı bir hal keşirməkdədirlər. Dörd tərəfdən atəş və qılıncla əhatə edilmişlərdir. Andranik Zəngəzurdan və Şuşadan qoşunlarımızın getdiyini eşidərək, dərhal Şuşanı işğal etməyə hazırlaşmağa başlamışdır. Onun işarəsi ilə bütün Zəngəzur, Şuşa və Cəbrayıl uyezdlərinin ermənіləri əldə silah olaraq xüruc edirlər [ortaya çıxırlar]. Onların böylə ümumi xürucunun məqsədi budur ki, Zəngəzur və uyezdini müsəlmanlardan təmizləyib, Ararat Cümhuriyyəti ərazisinə qoşsunlar və Andranikin Şuşaya getmək yollarını da mümkün olan qədər müsəlmanlardan təmizləyib qorxusuz qılsınlar. Üçüncü məntəqənin rəşid [rəşadətli], dilavər [igid] müsəlmanları miqdarca az olduqlarına baxmayaraq dörd min nəfərlik quldur dəstəsinin Şuşaya gedən yolunu sinələri ilə qapamışlardır. Dörd gündür ki, orada şiddətli vuruşma gedir və Andranik irəli hərəkət edə bilməyir. Amma bir-iki gündən sonra Şuşa yolunu mühafizə edən müsəlmanların gülləsi qurtarıb, qüvvələri kəsbi-zə'f etdikdə [zəiflədikdə], iş müəssif [acınacaqlı] bir rəng ala bilər. Uyezdin sair yerlərinin vəziyyəti isə bu qərar ilədir:

Arvad, uşaq, qoca, cavan fərqi gözləməzdən ümum müsəlmanları tələf, mallarını qarət edirlər, kəndlərini yandırırlar. Heç yerdən müsəlmana kömək yoxdur. Əllidən ziyadə böyük, kiçik müsəlman kəndi tamamilə yandırılıb, əhalisi bilkülliyə [tamamən] qırılmışdır. Müsəlmanların məşhur müqəddəs ocağı olan "Pir Davudan" dəxi yandırılmışdır. Yalnız binasının qiyməti neçə milyon idi. Müsəlmanları nəhayət dərəcə hiddət və vəhşiliklə qırırlar. Hər gün ermənilər müsəlman köylərinə hücum edirlər, şiddətli vuruşmalar olur. Uyezd, mütəşəkkil erməni dəstələrinin hücumuna davam edə bilməyir. Bilatəxir [dərhal] qoşun göndərmək lazımdır. Bircə həftə kömək gəlməsə, bütün Zəngəzur və Şuşa uyezdləri və Əsgəran, müsəlmanların əlindən çıxacaqdır.

Zəngəzur əxzi-əsgər [hərbi qulluğa çağırış idarəsi] rəisi: Məliknamazəliyev
4 dekabr, 18 saat 20 dəqiqə

Tərtərdən:

Son beş gün zərfində "uqlad" ermənіləri Qaranuş kəndi müsəlmanlarına hücum edərək üç at və 1350 qoyunlarını aparmışlardır. Atışma nəticəsində qoyunların bir qismi saldırılmış və Cəmşid bəy Vəlibəyovun bir atı ölmüşdür. Başçılardan Mani adlı bir şəxs qətl edilmişdir. Dövlətli nam [adlı] erməni kəndində 35 ev müsəlman ermənilərlə qarışıq yaşayırlardı. Düşənbə [bazar ertəsi] günü Şuşadan ermənilərə bir məktub gəlmişdir. Məktubun məzmunu bizə məlum deyildir. Ancaq həmin məktubu alar-almaz ermənilər həmin qonşularına hücum edərək evlərini, şeylərini, taxıllarını və heyvanlarını qarət edib, Ocaqverdi Molla Qənbər oğlu, Eyvaz Novruz oğlu və Sona Şahməhəmməd qızını öldürmüşlərdir. Yerdə qalan müsəlmanlar dağlara, meşələrə dağılmış, bəziləri də yaxında olan müsəlman kəndlərinə qaçmışlardır.

Gülədağ kəndi ermənilərinin bir dəstəsi Surxaylı müsəlmanlarına hücum edərək 122 baş mallarını və 25 keçilərini aparmışlardır. Bu hücumda Qasapet ermənilərindən Makar nam birisi qətl edilmişdir. Digər bir dəstə iki dəfə Qala Şilan müsəlmanlarının 105 baş malını aparmışdır. Məhəlli-hadisədən [hadisə yerindən] indicə qayıtmışam. Ermənilər özlərini nəhayət dərəcə cəng-cuyanə [davakar] bir surətdə apararaq, böyük müşkülatla təhdid edirlər. Qəti tədbirlər görmək lazımdır. Təfsilatını məktubla xəbər verirəm. Əhvalat, müfəssəl surətdə İngiltərə, Fransa heyətinə xəbər verilmişdir.

Uyezd naçalniki: Məlikabbasov
6 dekabr 19 saat 55 dəqiqə

Ordubaddan:

Ordubaddan 15 verst Zəngəzur uyezdində məhəlli ermənilər Andranik dəstəsi ilə bərabər 10-dan artıq müsəlman kəndini xarab etmişlərdir. O cümlədən Kilid, Lehvaz, Yuxarı Vartanazor, Aşağı Vartanazor, Tey, Buğakar, Tağamir və qeyriləri büsbütün xarab edilmişlərdir. Andranik dəstələri Aldərə, Teğut, Mərzəğat, Novı Vartanazor kəndlərini mühasirə etməyə hazırlaşırlar. Əhali həyəcana düşüb İrana qaçmaq istəmişdir. Bir çox arvad-uşaq Araz çayında qərq olmuşdur. Andranik dəstələrindən qaçıb xilas olanlar Araz çayı kənarında açıq havada fəlakət içindədirlər. Zəngəzur və Ordubad əhalisini də bu günlərdə bu tövr fəlakət gözləyir. Andranik başında olan ermənilər, mühafizəsiz müsəlmanları qırıb qurtarmaq fikrindədirlər. Bütün Avropa silahı yerə qoyub sülh deyə qışqırdığı zaman ermənilər Müttəfiq dövlət nümayəndələrinin Qafqaziyada olmalarına baxmayıb, məşhur quldur Andraniklə müsəlmanları qırmaqda davam edirlər. Dinc müsəlmanların mühafizələri üçün tezliklə tədbirlər ittixaz edilməsini [tədbirlər görülməsini] və ermənilərin vəhşiliklərini məhəllində [yerində] görüb təsdiq etmək üçün Azərbaycan və Gürcüstan nümayəndələrinin göndərilməsini Müttəfiq dövlət nümayəndələrindən xahiş edirik. Ordubad və Zəngəzur mahalının bir ildən ziyadədir ki, bütün dünya ilə əlaqəsi kəsilmişdir. Poçt-teleqraf münasibatı olmadığına görə əhali öz dərdini başqa bir yerə xəbər verməkdən aciz qalmışdır. Halımızın nəzəridiqqətə alınmasını xahiş edirik.

Hacıyev

QƏZETƏLƏRDƏN

* Axırıncı alınan xəbərlərə görə, Mineralnı mövqifi [stansiyası] bir neçə gün bundan irəli Könüllü ordu tərəfindən işğal edilmişdir. Bolşeviklər, Çeçendən Petrovska hərəkət etmək üçün cənub tərəfə çəkilməkdədirlər. Bolşeviklərə yapışmaq istəməyən Tersk kazaklarının bir hissəsi Könüllü orduya qovuşmaqdan ötrü şimala tərəf getmişdir.

* Qəzetələrin verdiyi xəbərə görə Vyana, Lvov, Peştə və başqa şəhərlərdə məhəlli [yerli] qarnizonlarda olan yəhudi saldatları yəhudi talanını dəf edib asayişi mühafizə etməkdən ötrü xüsusi dəstələr təşkil etmişlərdir. Tarnuvda Polşa saldatları ilə yəhudi saldatları arasında qanlı müsadimələr [toqquşmalar] vaqe olmuşdur. Polşa kəndliləri talan etmək istəmişlərdir. Yəhudi saldatları silah ilə mümaniət [maneçilik] göstərmişlər. Polşa saldatları kəndlilər tərəfinə keçdikdə qanlı müsadimə olmuşdur.

* "Tribuna" qəzetəsi xəbər verir ki, məbuslardan Tranqoyaş Zəhmətkeş Firqəsinin mərkəzi komitəsi namından krala bir bəyannamə vermişdir. Bu bəyannamədə məmləkət mənafeyini gözləyən və millətin canlı qüvvəsindən ibarət, firqələrdən ari [uzaq] bir hökumət təşkili təklif edilir. Çünki lazım qədəri nüfuza malik olan böylə bir hökumət[lə], ümumi seçki hüququ əsasınca seçki üsulunu bərpa etmək olar.

Ermənistanda

İrəvandan alınan qəzetələr Ermənistan Ümuri-Xeyriyyə [Sosial Müdafiə] naziri Karçikyanın öldürülməsi təfsilatını böylə yazırlar:

Təşrini-saninin [noyabrın] 14-ündə gündüz saat 12-də praporşik Ter-Minasyans, Karçikyanın otağına daxil olub heç bir söz söyləmədən üç güllə ilə Karçikyanı sinəsindən vurub öldürmüşdür. Qatil otaqdan çıxdıqda öz paltosunu buraxmışdır. Paltonun cibindən bir siyahı çıxmışdır. Həman gün gecə saat birdə qatilin həyatı təmin edilib, mühakiməyə veriləcəyi vədindən sonra gəlib özünü hökumət əlinə təslim etmişdir. Karçikyan qətl edilən gün "Daşnaqsaqan" firqəsinin məşhur xadimlərindən Kanayan Dro, qatil praporşikdən böylə bir məktub almışdır:

"Yoldaş Dro! İş başında olan yoldaşlarımızın bir hissəsinin bu axır dörd il müddətində erməni millətindən ötrü həlakətli [həlaka sürükləyən] siyasət aparmalarından naşi [ötrü], mən bu gün Karçikyan əleyhinə öz vəzifəmi ifa etdim. Karçikyan məsuliyyətli bir vəzifə başında ola-ola erməni millətinin mənafeyinə xəyanət edib, bütün milləti qılınca və atəşə verməklə cəzasız qalmışdı. Mən yenə təzədən məsuliyyətli rolu öhdəmə aldım. Mən öz fikrimcə hərəkət etmişəm. Firqə yoldaşları məhkəməsində və açıq məhkəmədə bəyanat verməyə hazır varam."

AZƏRBAYCAN VƏ RUSLAR

İləricə xəbər vermiş olduğumuz üzrə, Azərbaycan Məclisi-Məbusanı açılarkən, Hökumət sair millətlərlə bərabər Rus Milli Şurasına da məktub yazaraq nümayəndə göndərməsini təklif etmişdi. Lakin komitə adam göndərmək istəməmişdi. Eyni zamanda Qafqaziya Rus-Slav Cəmiyyəti Hökumətə müraciətlə, nümayəndə bulundurmaq istədiyini bildirmiş və Parlamanda yer istəmişdi. Hökumət 5 yer verdi və hazırda rus nümayəndələri gəlirlər. Bu münasibətlə Bakı Rus Milli Komitəsi ilə Qafqaziya Rus-Slav Cəmiyyəti arasında bir mübahisə çıxmışdır. Rus Milli Komitəsi 4 dekabr tarixli iclasında məzkur [adı çəkilən] cəmiyyətlə münasibatını [münasibətlərini] müzakirə edərək və onunla heç bir əlaqədə bulunmamağı təhti-qərara almışdı. Eyni zamanda komitənin mürəvvici-əfkarı [fikirlərini yayan, nəşr orqanı] olan "Yedinaya Rossiya" qəzetəsi bir baş məqalə yazaraq təklif etmişdi ki, Slav-Rus Cəmiyyəti kimlərdən təşəkkül etdiyi, başçıları kimlər olduğu, kimin adından və nə kimi bir proqramla Azərbaycan Parlamanına iştirak etdiyini xəbər versin. Buna cavabən Rus-Slav Cəmiyyəti rusca "Azərbaycan" qəzetəsinə "Bizim cavabımız" ünvanlı bir məktub göndərərək iki təşkilatın münasibatını təsvir bədində [təsvir etdikdən sonra] yazır ki:

"Qafqaziya Rus-Slav Cəmiyyəti, rus ziyalılarının ən ağır günlər keçirdiyi bir zamanda, Tiflisdə təəssüs etmişdir [qurulmuşdur]. Rus-Slav camaatını müttəhidən [birgə] milli, elmi, mədəni, xeyriyyə və maarif işlərində çalışmaqla birləşdirmək qəsdilə təşkil olunaraq, bu cəmiyyət sonraları Tiflisdə vücuda gəlmiş şərait altında işləməyi əlverişli görmədiyindən və Azərbaycan məhafilinin [dairələrinin] rus mədəniyyəti və rus ziyalılarına hüsn-təvəccöhünü bildiyindən, Bakıya köçməyi müvafiq görmüşdür. Bakıda fəaliyyətini edadi sənaye məktəbi açmaq hazırlığından başlayaraq, Azərbaycanda hətta ali məktəb açmaq xəyalında olmuşdur. Şura bilirdi ki, bundan sonra ruslar Bakıda ancaq mədəniyyətlə güclü ola bilər və bu yolla bütün Qafqaziya millətləri ilə Rusiyanı birləşdirə bilərlər. Noyabrın axırlarında Şuraya məlum olmuşdur ki, təsadüfi adamlar tərəfindən seçilmiş və Azərbaycan rusları tərəfindən danışmağa əsla haqqı olmayan Milli Komitə, məmləkətin müsəlmanları ilə birgə işləməyi mümkün bilməmişdir və məhəlli quvayi-təşriiyyə [qanunverici orqan] təsisini vaxtsız görərək Parlamana nümayəndə göndərmək istəməmişdir. Bu surətlə rus əhalisini kəndi mənafeyini müdafiə imkanından məhrum etmiş və iki millət arasında etimadsızlıq və anlaşılmazlıq hüsuluna bais olur. Bu qərardad xüsusən bizə onun üçün nagəhani [vaxtsız, yersiz] göründü ki, Rus Milli Komitəsi Ufa Hökumətinin qəbul və təsdiqi nöqteyi-nəzərini müdafiə etdiyi halda, özü qərar vermişdir ki, həmin Məclisi-Müəssisanın Rusiyanı qoşma [federativ] xalq cümhuriyyəti elan etmək haqqındakı qərarına zidd getsinlər. Şura burasını da anlaya bilmir ki, Rus Milli Komitəsi Bakıda hökuməti nə surətlə təşkil etmək təsəvvüründədir. Çünki Qafqaziyada hökumətin ancaq Ümumrusiya Hökuməti tərəfindən vəkil edilmiş müəssisəyə məxsus olmalı olduğu haqqında qəbul etdiyi əsas, həyata bilmərrə [qətiyyən] tətbiq ediləmməz. Qafqaziyadan bilmərrə ayrı düşmüş, onunla heç bir əlaqəsi olmayan Ufa Hökuməti, Qafqaziyada böylə bir müəssisə təsis və onu davam etdirə bilməz.

Bundan əlavə, Müttəfiqlər Rusiyaya varid olarkən [gələrkən], kiçik millətlərin müqəddəratı haqqında elan etdikləri əsasları Rus Milli Komitəsinin danmasını da biz bilmərrə başa düşməyiriz. Biz ancaq bir şeyi anlayırız ki, Rus Milli Komitəsi hər məmləkətin məhəlli [yerli] əhalisi nümayəndələrindən mürəkkəb məhəlli hökumət təşkilinə razı olmayaraq və hökumət təşkilini Ümumrusiya Ufa Hökumətinə tapşıraraq, Müttəfiqlərin elam etdikləri [bildirdikləri] əsaslara rəğmən, müsəlmanlar haqqında barışmaz bir vəziyyət alır. Bu da Milli Komitə başçılarının hakimlik fikrindən nəş'ət edir [meydana gəlir].

Sonraları komitə öz qərarnaməsinə zidd olaraq Parlamana getməməsinin səbəbini böylə göstərmək istəmişdir ki, guya Parlaman, əhalinin fikrini bəyan edən müməssil [təmsilçi] deyildir. Parlaman, dürüst seçki ilə dəvət edilməmişdir. Burasına etiraz etməklə bərabər, Komitədən soruşuruz: Bu Komitə özü rus əhalisinin mürəvvici-əfkarıdırmı, ya vəziyyəti bəyan edirmi və Azərbaycan Parlamanında rusların iştirak edib-etməmələri kimi mühüm və əsasi məsələnin həllində bütün ruslar namından danışmağa mənəvi ixtiyarı varmı?

Milli Komitə rəisləri qorxurlar ki, Azərbaycan Parlamanına daxil olmaqla Azərbaycan Cümhuriyyətinə mədhiyyə oxuyar, yaxud Azərbaycanın haqqi-hakimiyyətə malik bir cümhuriyyət olduğunu təsdiq etmiş olarlar. Onlar bilməyirlərmi ki, Komitəmizin nümayəndələri Parlamana daxil olduqda səssiz üzv kimi deyil, bəlkə lazım olan yerlərində sözlərini deyib də, hətta istəsə Parlamandan çıxıb gedə bilər? Onlar bilməyirlərmi ki, Azərbaycan müqəddəratını Rus Milli Komitəsinin Bakı üzvü deyil, bəlkə başqaları həll etməyə qadir ola bilərlər? Təəccübdür ki, "Azərbaycan dövləti" kəlməsindən qorxan "vətənçilər" bununla belə məhkəmələrdə bütün işlərini Azərbaycan Hökuməti namından [adından] aparıb, Azərbaycan Hökumətinin mövcudiyyətini filhaqiqə [həqiqətdə, gerçəklikdə] təsdiq və etiraf etmiş olurlar. Əcəba bir məvacibdən ötrümü bu işə mübaşir olurlar [bu işlə məşğul olurlar]? Komitənin bir çox üzvləri Azərbaycan Hökuməti dairələrində müxtəlif qulluqlara daxil olaraq öz məişətlərini təmin edirlər. Bütün rus əhalisi namından Parlamanı boykot edən Komitə əzası [üzvləri] onu bilirlərmi ki, böylə hərəkətlə Azərbaycan Hökumət qulluğunda olan rusları ağır bir hal qarşısında buraxırlar? Bundan sonra Azərbaycan Hökuməti bunlara nə nəzərlə baxacaqdır? Əlbəttə ki, Hökumət bunlara itminan [inam] bağlaya bilməyəcəkdir.

Bütün yuxarıda yazdıqlarımızı nəzəri-etibara alaraq Slav-Rus Komitəsi böylə qərara gəldi ki, Parlamanı boykot etdikdə ruslarla müsəlmanlar miyanında [arasında] dərin, müdhiş və keçilməz bir uçurum əmələ gələcək ki, Cəmiyyətin mədəni və maarif məqsədlərinə böyük zərbələr endirəcək. Bundan dolayı Slav və Rus Milli Komitəsinin hərəkətinə bərəks [əksinə] olaraq Müttəfiqlərin səlahdidi [razılığı] ilə Parlamana getməyi qət etdi. Nümayəndələrimiz Parlamanda Cəmiyyət əzasının [üzvlərinin] mənafeyini müdafiə ilə bərabər, əsas olaraq işbu şüarı qəbul etmişdir: "Vahid və bütün Azərbaycanın qardaşvari dostluğu." İşbu şüar və əsas, Cəmiyyətin deklarasiyasında dərc edilmişdir ki, Parlamanda elam ediləcəkdir.

Qafqaziyadakı Slav-Rus Cəmiyyəti Şurası
8 kanuni-əvvəl 1918 sənə"

BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ

III

"Bəradərani-Nobel şirkəti" təsis olunar-olunmaz öylə ciddiyyətlə işə girişir ki, az bir müddətdə sairlərini yarı yolda qoyub keçir. Bu gün şirkətin əlində: 1) Balaxanı, Bibiheybət, Ramanı, Sabunçu, Maykop, Çələkən və sairlərində neft yerləri və mədənləri; 2) Bakı ətrafında bir çox zavodları; 3) Rusiya şəhərlərinin bir çoxunda sklad və anbarları; 4) Neft daşımaq üçün alati-nəqliyyələri [nəqliyyat vasitələri] (paraxodları); 5) Yevropanın mühüm nöqtələrində, əzancümlə [o cümlədən] Marseldə, Antverpendə, Cenovada, Hamburqda, Londonda və Mançesterdə acentələri və anbarları mövcud və mühəyyədir [hazırdır].

1883-cü ildə Bakı ilə Batum arasında Zaqafqaz dəmiryolu çəkməklə Bakı nefti üçün Qara dəniz vasitəsilə xarici məmləkətlərə böyük-böyük yollar açılır. Həman ildə "Nobel" şirkətinin birdən sərmayəsinə 5 milyon əlavə etməsi bu təzə yollardan istifadə etmək üçündür.

İşbu dəmiryolları çəkmiş Palaşkovski ilə Bunqe adlı iki dənə rus mühəndisləri "Nobel" şirkətinə təqlidən xalis bir rus şirkəti düzəltmək həvəsinə düşürlər. Amma çifayda, bunların da səy və kuşişləri [çalışmaları] hədərə gedir. Bunların düzəltdiyi "Benito" şirkətinə rus sərmayədarları qabaqki kimi yaxın durmayıb, aksiyalarını da almayırlar. Nəticəsi də bu olur ki, axırda firəng "Rotşild xanəsi [ailəsi]" rus mühəndislərinin aksiyalarını tamamən alıb, 83-cü ildə də "Kaspi-Çernomor Ticarət Cəmiyyəti" adı ilə yeni bir şirkət düzəldir.

Nobellərlə rəqabətə qalxmış Rotşild xanəsi, Bakı nefti dairəsində böyük işlər görməyə müvəffəq olmuşdur. O vaxta qədər pul yoxsuzluğundan üsrət [çətinlik] çəkməkdə olan Bakı zavodçularına 6 prosentlə (6%) iki milyon pul buraxıb onları özünə cəlb etdi. Bu dərəcədə az faizli borc görməmiş zavodçular da ittihad yapıb [birləşərək] zavodlardan hasil olan cövhəri tamamən yeni şirkətə satmalı idilər. Zatən borc mövcibincə [borc müqaviləsinə əsasən] sairlərinə satmağa da ixtiyarları yox idi.

İştə "Kaspi-Çernomor" cəmiyyətinin məharəti ki, neft və ağ neft ticarətini xaricən tamam ələ almışdır. İmdi həmin şirkətin təsərrüfündə [ixtiyarında, istifadəsində] var: Balaxanı, Sabunçu, Ramanı, Suraxanı və Bibiheybət yerlərində neft mədənləri; Keşlədə ağ neft və yağ zavodları; İstanbulda yeddi dənə dəmir barjaları; Rusiyanın mühüm şəhərlərində anbarları; Batum iskələsində hədsiz ticarət gəmiləri – ki bunların vasitəsilə nefti və onun məhsulatını [neft məhsullarını] kürreyi-ərzin ən uzaq nöqtələrinə, əzancümlə [o cümlədən] Almaniya, İngiltərə, Firəngistan, İspaniya, İtaliya, Avstriya, Çin və Hindistana qədər yeridib füruş edirlər [satırlar].

Buraya qədər zikr etdiyimiz şirkətlərin hamısı – necə ki məlum oldu – ancaq əcnəbilər sərmayəsi ilə yaşayırlar. Rus dövlət banklarında qızıl pul aşıb-daşdığı bir zaman yenə rəislərin gözləri xarici pullarında idi. Böylə ki, sabiq Maliyyə vəziri [naziri] Vitte demişdir:

"Əcnəbi pullarının vətənə axıb dolmasına cidd-cəhd etmək lazımdır. Zira "Proteksionizm"dən* azad olmaq, ancaq əcnəbi sərmayələri ilə mümkündür. Rus məmləkətlərində rəislərimiz əcnəbi pullarını dörd gözlə gözlədikləri zaman, Amerika rəisləri bunun əksinə olaraq, ümdə vətən sərmayəsinə əhəmiyyət verirdilər. Böylə ki 1870-ci ildə düzəlmiş bir neft kompaniyası 99-cu ildə təzə aksiyaları ancaq amerikalılar arasında paylamaqla bu kompaniyanı əcnəbilər çəngəlindən [caynağından] çəkib qurtardı. Bu gün həmin kompaniyanın ətrafında iş görənlərin ən çoxu amerikalılardır!

1898-ci ildən başlayaraq İngiltərə sərmayədarları rus neft işlərinə artıq diqqət yetirməyə başlayırlar. Bunların üç dənə təzə şirkətləri əllərində 33 milyon sərmayə ilə bir çox neft mədənləri almağa girişirlər. Əzancümlə Tağıyev, Arakelov, Budaqovlar və Adamovların mədənlərini də bunlar almışlardır.

Rus-Yapon müharibəsindən sonra neft işlərində ağır bir böhran əmələ gəlir. Ona görə ingilislər daha artıq pul buraxmaq istəməyib, bir müddət sükut edirlər. Bu halda, alman sərmayədarları bir qədər cürətlənirlər. 1910-cu ildə bir çox Yevropa hökumətləri paroxodlarda daş kömür əvəzinə neft yandırmağı qərara alırlar ki, həmin qərardad Bakı böhranını aralıqdan götürür. Böhran zail olduqdan [aradan qalxdıqdan] sonra, ingilislər daha artıq bir şövqlə işə girişirlər və 13-cü ilədək 50-yə qədər neft ticarəti düzəldirlər. Böylə ki, bundan sonra London şəhəri neft işlərinin mərkəzi kəsilib gedir. Burada Bakı tacirlərindən Mantaşev, Qukasov və [Stepan] Lianozovların səy və ehtimamı ilə "Oil"* adlı bir "şirkətlər ittifaqı" (трестъ) yapılır. İşlərin sürəti və tərəqqisi xatirinə Rusiyanın ən zəngin bankalarından yeddisini, "Vostoçnoye uçastvo" ilə bir də "Qafqaz-Merkuri" idarələrini bu ittifaqa cəlb edirlər. Odur ki, "Oil" ittifaqı az bir müddətdə bir çox yer və mədənlərdən əlavə, Bakıda mövcud şirkətlərin külli aksiyalarını dərdəst edir [ələ keçirir].

Bu halda "Oil" ətrafına cəmləşmiş cəmiyyətlər və şirkətlər bu aşağıda zikr olunanlardan ibarətdir:

1) Mantaşev və oğlu şirkətləri;
2) Naftalan cəmiyyəti;
3) Moskva-Qafqaz cəmiyyəti;
4) Lianozov, Mansvetov və Məlikov cəmiyyətləri;
5) Ter-Akopov və Kolesnikov cəmiyyətləri;
6) Kaspi şirkəti;
7) Syunik;
8) Mirzoyevlər;
9) "Aramazd";
10) Abşeron və Şıxov cəmiyyətləri;
11) Avan Yüzbaşov, Putilov, Maksimov və Belozorovlar...

Bunlardan əlavə "Oil" müəssisləri [təsisçiləri] bir də "Nobel" aksiyalarından bir hissə ala bilmişdirlər ki, bu da "Nobel" şirkətinin alman hissədarlarını böyük bir təşvişə salmışdır. Lakin alman qəzetələrinin yazmağına görə, bu vaxt "Nobel" şirkəti öylə bir ətraflı əsas, öylə bir möhkəm təməl yapmışdır ki, onun ticarətini bu gün 60 milyonla da ələ salmaq mümkün deyil. Qəzetələrin verdiyi bu məlumat almanları bir qədər sakit və rahat etmişdir.

Bu iki ("Oil", "Nobel") "neft əjdəhaları"ndan əlavə bu axır vaxtlarda "Şell" (Шеллъ) adlı üçüncü bir "şirkətlər ittifaqı" əmələ gəlir ki, bunun da ətrafına bir çox şirkətlər yığışır. Əzan-cümlə "Kaspi-Çernomor", "Şibayev", "Qafqaz", "Rus nefti", "Ural-Kaspi" və "Şimali Qafqaz" və sairləri onun mütəəlliqatındandır [ondan asılıdır].

Sözü müxtəsər edəlim. Bakı neftinin ən böyük hissəsi və ticarətinin də dörddə üç payı həmin "Oil", "Şell" və "Nobel" kompaniyalarının əlindədir. Bunlar, 1914-cü ildə 288 milyon put neft hasil etmişlərdir. Bu gün tamam əcnəbilərin sandıqlarında 364 milyon manatlıq neft aksiyaları yatmaqdadır.

İştə sabiq rəislərimizin "proteksiyonel" üsulunu müdafiə etmək nəticəsi – ki vətənin böyük məhsulatı bu gün xaricilər əlində qalıb getməkdədir.

Buruq quyuları böylə nəticələr göstərirkən, əl quyuları nə növlə davam edirlər? Bu barədə gələcək dördüncü məqaləyə müraciət buyurula.

Fərhad Ağazadə

QADINLARIN HAQQI

Qadınların haqqı mövzuyi-bəhs olduğu zaman, etiraf edəlim ki, biz erkəklər bu məsələdə tamamilə bitərəf olmayırız. Əflatun belə

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 11 dekabr (Çərşənbə günü) tarixli 62-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

"Erkəklə qadın sağ və sol əl kimidir. Əllərimiz eyni işi görməklə mükəlləfdir. Yalnız birini fəzlə [çox, artıq] qullanmak etiyadı [vərdişi] onu digərindən bacarıqlı etmiş" dediyi halda, bir gün ibadət əsnasında "Yarəbbi, məni hürr yaratdığına və qadın olaraq dünyaya gətirmədiyinə həmdüsəna [şükür] edirəm" demişdir. Aradan bunca əsrlər keçdi. Mədəniyyət dərəceyi-kamalı buldu. Qulübələrdə yaşayan köylü qadınlardan saraylarda səltənət sürən sultanlara qədər sorulsa, qadın yaradıldığına nadim [peşman] olmayanlar az deyildir. Əqvami-vəhşiyyədə [vəhşi qövmlərdə] qadın, bədənən erkəkdən daha qüvvətsiz olduğundan, qocasının [ərinin] hər əmrinə müti bir əsir kimidir. Miləli-mütəməddinədə [mədəni millətlərdə] isə erkəyin fikir sahəsindəki təfəvvüqü [üstünlüyü], qadını yenə binnisbə [nisbətən] dun [aşağı] mövqedə buraxmışdır. Zamanın nisvanını [qadınlarını] bəyənməyən Mirabo: "Qadınların heç bir qiyməti yoxdur. Çünki onlar bizim əsərimizdir." demiş.

Filhəqiqə [həqiqətən], cinsilətifə isnad edilən məsaviyi-əxlaqiyyənin [əxlaqi qüsurların] əsl failləri [baiskarları] biziz. Qadın məğrurmu, hərcayiməşrəbmi [yüngül xarakterlimi], qısqancmı, yalançımı? Nə istərsəniz söyləyiniz, onu o hala qoyan həp erkəklərdir. Onu sevərsək, yüksəldər, yüksəldər üluhiyyət [ilahlıq] mərtəbəsinə çıxarar, qarşısında təəbbüd [ibadət] edəriz. Sonra bir gün üz çevirər, təlin edəriz [lənətləyərik]. İstəriz ki, o bütün varlığı ilə yalnız bizim olsun, hər şeyi bizə versin. O qədər ki, surəta [görünüşdə] sultan, fəqət mə'nən yenə bizə əsir olsun. Onları iğfal [aldatmaq] üçün yüz min yəmin edəriz. Gözəlliklərini mübaliğə ilə mədh edəriz. Mərhəmətlərini cəlb üçün intiharlara təsəddi [təşəbbüs] edəriz. Məqsədə vüsul [çatmaq] üçün hər şəklə girəriz. Xülasə, put [büt] yapar, tapar; həvəsimiz keçincə qırar, atarız.

Xilqəti-Adəmdən [Adəmin yaradılışından] bəri qadınların leh və əleyhlərində söylənən şeylər bir araya toplansa, çox qərib[ə] bir əsər vücuda gələrdi. Qadınlar bizlər üçün ya məbuddur [ibadət obyekti], ya məlun [lənətlənmiş]. Halbuki o nə rəhmətdir, nə şeytan! Bizim kimi fəzilətləri və qüsurları olan bir insandır. Yalnız fəzilət və qüsurları bizimkilərin mahiyyətində deyildir.

Milton, həzrəti-Adəm lisanından şu sözləri söylədir: "Dön, geri dön mənim gözəl, Həvvacığım! Kimdən qaçırsan? Bilirmisən, ictinab etdiyin [çəkindiyin] Adəmin əti və kəmiklərisən? Daima bərabər bulunmaqlığımız üçündür ki, qəlbimə ən yaxın olan bir kəmikdən xəlq olundun. Ey ruhumun yarısı, gəl, səni arayıram! Nisfi-digərin [o biri yarın] səni istəyir, gəl!"

Miltonun bu sözlərinin doğru olması və həzrəti-Adəmin təmənnasının hüsul bulması üçün qadın ciddən erkəyin nisfi [yarısı] olmalıdır. Bizi bütün bugünkü haqsızlıqlara sövq edən, ruhumuzda mündəmic [cəm olmuş] xudkamlıqdır (altruiste). Qadın isə xilqətən digərkamdır (eqoisme). Onun səciyyəsində hökmran olan, hübbi-qeyridir [başqalarına məhəbbətdir]. Erkək ailəsini və çocuqlarını sevər, fəqət əvvəla kəndini düşünər və ailəsi əfradını [fərdlərini] kəndi mal və mülkü kimi qiyas edər [qiymətləndirər]. Qadın isə əvvəla başqalarını düşünər. Həyatın hər səfhəsində [mərhələsində] bunu görüb təhqiq edə bilərik. Süfrədə yeməyi tövzi edən [paylayan] validə [ana] isə mütləq əvvəla hər kəsə bəyəndiyini və istədiyini verər və artanı kəndi alar. Hətta çox dəfə şayəd [əgər] yemək az isə, iştahası olmadığını bəhanə edərək, kəndi yeməkdən vaz keçər. Bunu erkək yapmaz və yapammaz. Erkək üçün həyatda qayə, məsud olmaqdır. Qadında isə məsud etməkdir.

İştə qadın xilqətin müdafiəsi üçün uğraşan və onun ailədə, məktəbdə, məmuriyyət və ictimai həyatda həqqi-vəzifəsini müdafiə edən ən məşhur adamların yanında sevdikləri bir qadın kimsələrə "feminist" deyirlər. Avropada və Amerikada bu cərəyanın başında pək mühüm qadın və erkək simaları vardır. Bu cərəyan, bilxassə [xüsusilə] İsveçdə pək calibi-nəzərdir [diqqəti cəlb etməkdədir]. Feminizmin orada milli və mövzei [yerli] bir mahiyyəti vardır. Buna ayrı bir məqalə təxsis etmək [ayırmaq] istəriz.

Avropada feministlərin nöqteyi-nəzərləri başqa-başqadır. Müsavati-mütləqə [mütləq bərabərlik] tərəfdarları, qadınlar da erkəklər kimi eyni hüquq və eyni imtiyazlara malik olmalıdır, deyirlər. Emil Faqe də bu fikrə tərəfdardır və deyir ki:

"Sivil [mülki] məmuriyyətlərin kaffəsinə [hamısına] girə bilmək haqqı qadınlara verilməlidir. Bu xüsusda mühafizəkarların etirazları pək nabəcadır [yersizdir]. Deyirlər ki, qadın erkək işi görəcək qədər fikrən yüksəlməmişdir. Əla! O halda nədən çəkinirsiniz? Buraxınız dərhədə etsinlər [öhdələrinə alsınlar]. Sonra kəndiləri məhcub olar [utanar]. Bu, tibqi tək qollu bir adama, sənə dirəyə çıxmaq məmnudur [yasaqdır], demək kimi bir şey. Çıxmaqmı istəyir? Buyur çıx, deməli. Əgər xilqət, kəndisini o qabiliyyətdən məhrum etmişsə, artıq onu bir də qanunla təqyidə [bağlamağa, mane olmağa] qalxışmaq gülünc olmazmı? Təbib, heykəltəraş, mühəndis, avukat [vəkil] olmaq arzusu izhar edən bir qadına, xeyr, bu məsləklər erkəklərə məxsusdur, siz tikiş tikəcəksiniz, naxış işləyəcəksiniz, yemək bişirməyi öyrənəcəksiniz, çünki qadınsınız, demək bir haqsızlıqdır. Bunu əmr etmək, onların hüququna təcavüz etməkdən başqa bir şey deyildir. Qadına, sən şunu yapacaqsın, bunu yapmayacaqsın, deyə əmr edilməz. Ona həqiqi ehtiyacının nə olduğu təlim və təlqin edilər."

Feministlərin bir qismi də şöylə düşünür:

"Denir ki, qadın əsir vəziyyətdədir; erkəklərə bəxş edilən haqq və imtiyazları eynən ona da verəlim; onu bizimlə müsavi dərəcəyə çıxaralım və məsud edəlim! Məsələni böylə düşünmək yanlışdır. Çünki bizim malik olduğumuz haqq və imtiyazları qadına verərsək, əcəba bizim tabe olduğumuz vəzaifi-ictimaiyyəni [ictimai vəzifələri] yapa biləcəkmidir? Xeyr. O halda heç vaxt erkəklə müsavi olmayacaq və erkəyə bənzəməyəcəkdir. Qadının rifahi-hal və səadəti erkəyə müsavi olmasında deyildir və eyi bilməlidir ki, bu müsavat, mütləqa kəndilərini məsud etmək şöylə dursun, bədbəxt edər. Qadınlar ancaq kəndi haqları tanındığı zaman bəxtiyar ola biləcəklərdir. Qadın kəndi istedad və qabiliyyəti dərəcəsində bədənən, fikrən, ruhən tənə'üm [qidalanır] və inkişaf etməlidir və bu üç nöqteyi-nəzərdən təkəmmül etdiyi [kamilləşdiyi] gün, haqqını istirdada [almağa] müvəffəq olacaqdır. Bunun üçün nə yeni qanunlara, nə də ixtilallara lüzum vardır.

Erkəkləşən qadın, qadınlaşan erkək kimi bədbəxtdir. Qadın; fünunda [elmdə], ədəbiyyatda, sənayedə varlığını göstərməlidir. Fəqət, onun əsl vəzifəsi yuvadadır. Qadın hər şeydən əvvəl anadır, mürəbbiyədir [tərbiyəçidir], müəllimədir. Qadın lisanından sadir olan hər kəlmeyi-tədris, bir şəfqəti-madəranə [ana şəfqəti] şəkli alır. Binaileyh [ona görə], qadına veriləcək ilk haqq, ilk imtiyaz izdivacda və ailədə olmalıdır. Fəqət qərib[ə]dir ki, feminizm bu gün izdivaca qarşı adəta bir düşmən vəziyyətindədir. Bunu idarə edən mütəfəkkir qadınlar istəyirlər ki, qadının şəxsiyyəti olsun, iradəsinə sahib, istiqlaliyyətinə hakim olsun. Qadın erkəyin məzununda [icazəsinə tabe] olan vəziyyətindən qurtulsun. Fəzlə süs [bəzək], fəzlə tualet [kosmetika] yapmasın; xəfifməşrəblik [yüngül təbiətlilik], işvəbazlıq, şuxluq, erkəklərə xoş görünmək kimi əsrlərdən bəri kökləşən etiyadları [vərdişləri] söküb atsın. Ciddi və məhsuldar məsaidə [işdə] bulunsun. İcabında erkəklərə möhtac olmadan keçinə biləcək bir sənət əldə etsin. Rastgələ [təsadüfi] bir izdivaca həmən müvafiqət [razılıq] etməsin. Şəxsiyyətlərini böylə tərbiyə edən qadınların mükəmməl zövcə və əmsalsız validə [ana] ola bilmələri varidi-xatir ikən [mülahizə edilərkən], bu qədər durəndiş [gələcəyi fikirləşən] və müşkülpəsənd olmaları izdivac sahəsini daraldır. Bu müstəğni [ehtiyacsız] qadınlar qoca [ər] bəyənməyir. Fəqət əmin olmalıdır ki, bu cərəyan ileri getdikcə qadınların vüqarı yüksələcək, izdivaclar qaşla-gözlə deyil fikirlə, ruhla yapılacaq və evlənmək istəyən gənclər: "Mən öylə bir rəfiqeyi-həyat [həyat yoldaşı] istərəm ki, mənə ehtiyacı olmasın və məni bəyəndiyi, təqdir etdiyi üçün mənə varsın; mənimlə fikir və ruh arxadaşı olsun və məndən məmnun olmadığı gün tərk edib getsin." İştə ailədə tanınması icab edən haqq budur.

"Sabah"
Səlim Sirri

İDEAL

Ağlayor ixtiyar ərəb qadını,
Oğlu bəstərdə müztərib yatıyor.
- Gedəlim, dur, təvafi-Kəbə üçün,
İştə axşamladı, günəş batıyor.
- Annə, mən xəstəyəm, bilirsən sən,
İnləyir ruhum, ağlamaq karım.
Anlamam, heç şey anlamam, yalnız
Bir gözəl eşqinə giriftarım.
- Gedəlim, qalx, təvafi-Kəbə üçün,
Bax, nasıl şövq ilə yürür hüccac.
Cümlə dərdlər şəfası Zəmzəmdir,
Sənə etsə edər fəqət o əlac.
Varalım sidq ilə öpüb Həcəri,
Boşla könlündəki qəmi, kədəri.
- Annə, qarşımda məhv olur aləm,
Yenə, bax, sevdiyim mücəssəm olur.
Onu qeyb eyləsəm əgər bir dəm.
Yediyim zəhr, içdiyim səm olur,
Annə, bax, bax, nasıl gözəl qızdır,
San şəfəqdən yaranma nuridir
Zöhrədir, o işıqlı yıldızdır,
O mələkdir və ya ki huridir.
Annə, bir bax, nasıl gözəl gülüyor,
Açılır gül kimi onun dodağı.
Nə qədər şuxdur desəm layiq,
Qönçələrlə mühat gül budağı.
Hələ bax, bax da seyr et əndamın,
Şübhəsiz, növ-şüküftə zanbaqdır.
Nəyə təşbehi var onun əcəba?
O pəridir, o hüsni-mütləqdir,
Annə, bir bax, nasıl gözəl duruyor,
Nə qədər asimanidir nəzəri
. . . . . .
Ah, lütf et, uzaqlaşıb getmə!
Məni torpaq sanıb da qəhr etmə!
Annəm! Eyvah, uzaqlaşıb gediyor,
O şəfəqlər qaraldı da soluyor,
Uçuyor iştə aşinayi-xəyal,
O həqiqət dönüb xəyal oluyor.
Buraxın, mən dəxi uçub gedəyim.
Bax, nasıl od tutub yanır sinəm,
Yandırıbdır bu od qanadlarımı,
Qalxa bilməm ki, xəstəyəm, annəm!
- Bu nə dəhşətli hal, aman, oğlum
Əcəba çıldırıbmıdır, eyvah?!
Bir qədər ağlayıb dua etsəm,
Bir şəfa versə bəlkə Beytullah –
Necə kim, oğlunun susuzluğunu
Görərək ağlamış idi Hacər,
Axmağa başlayıb o dəm Zəmzəm
Çağlamışdı o cuyi-qüdrət-əsər.
Öylə suzişli ağlayırdı qadın
Xəstə, yanğın görüncə övladın.
. . . . . .
. . . . . .
- Annə, bax, bax təcəssüm etdi yenə,
Yenə görsəndi qanlı gözlərimə.
Ah, insafsız uzaqlaşma,
Bir qulaq ver də barı sözlərimə.
- Kimdir oğlum o?
- Qayeyi-amal.
- Adı yoxdurmu, söylə bir.
- İdeal!

Bakı
Əli Yusif (Rai)

QARA DƏNİZDƏ

Qara dənizdə həyat adi hal kəsb etməkdədir. Bütün Qara dəniz səvahili [sahilləri] boyu Ukraynanın sarı-göy rəng bayrağı təməvvüc etməkdədir [dalğalanmaqdadır]. Odeassadan rahatcasına Potiyə getmək mümkündür. Fəqət taşrini-saninin [noyabrın] 10-dan etibarən üç həftə davam edən fırtına məsələni bir qədər çətinləşdirmişdir. Sonralar yenə adət üzrə Odessadan birbaşa Gürcüstan limanlarınadək seyri-səfain [gəmi hərəkəti] başlandı. Qafqaziyalıların böyük ehtiyacları olan mallar Odessa bazarında çox-çoxdur. Buradan Gürcüstana kartof, duz, sabun, əlbisə, çizmə (çəkmə) və qeyri aparılır. Odessa tacirləri qafqaziyalılardan ziyadəsincə razıdırlar: danışıqsız istədiyi qiyməti verirlər. Odessa bazarında ən yaxşı çizməni 350-400 rubləyədək almaq mümkündür. Bütün anbarlar mal ilə məmludur [doludur]. Həyat adi bir haldadır. İstiqraz müəssisələri fəaliyyətlərində davam edirlər. Avstriyalıları almanlar əvəz etmişlərdir. Avstriyalılar dövlət əmvalını [mallarını] bazarlarda satmaqla məşğul olmuşlar. 5 rubləyə at araba almaq mümkündür. Almanlar, ingilis-firənglərlə Odessada qalmalıdırlar. Odessada alman qoşunları şurası yoxdur.

Çörək kartoçka [ilə] deyil, açıq satışla satılır. Ən yaxşı ağ çörəyin girvənkəsi 2 rublə 20 qəpikdir. Peynirin girvənkəsi 6 rublə, qənd isə kartoçka ilə 3 rublədən, kartoçkasız 6 rublədir. Dardanel açılmışdır. Ən yaxın zamanda Qara dənizdə Avropa tüccaranı [tacirləri] görəcəyiz. İstanbulla əlaqə çoxdan başlanmışdır. İstanbula 2 gecə-gündüzə getmək olar. Xərc isə 2-ci sinif 160 rublə, 3-cü sinif 102 rublədir. İstanbulda lirənin qiyməti 9 rublə 50 qəpik. Nikolay parası, Kerenski parasının 20 və 40 rubləlikləri qəbul edilməyir. İri pul qəbul edilir.

İstanbul, Odessa və Ukraynadan ucuzluqdur. Xüsusən, bəzzaziyə malı [parça, arşın malı] çox-çoxdur. Müttəfiqlər donanması hamı limanları gəzmişlər. Biz onları Novorossiyskdə təşrini-saninin 28-də gördük. Buradakı bir Fransa zirehlisi, bir neçə də İngiltərə minanosları idi. İşbu zirehlidə Fransa Hökuməti nümayəndəsi Eşler gəlmişdi.

Bizim vapor, zirehlinin qarşısından keçdi. Bəhriyyun [matroslar] bizi, biz bəhriyyunu alqışladıq.

FƏHLƏ SƏSİ

Dünən bir nəfər fəhlə yoldaşıma rast gəlib halını xeyli pərişan gördüm. Səbəbin soruşduqda "Znamya truda" qəzetəsinin 145-ci nömrəsini mənə uzadıb "Azərbaycan Parlamentosunda iştirak etməkdən saqınmaq" sərlövhəli məqaləni göstərdi. Məqaləni oxuduqda mən də xeyli mütəəssir oldum. Çünki bu qərardad kadetlər firqələri tərəfindən yazılmış və qərarlanmış olsaydı bu qədər mövcibitəsir [təsirli] olmazdı. Çünki bu firqələrin məsləkləri məlumdur. "Vahid Rusiya" dövləti təşkil etmək xəyalındadırlar və buna görə də bizim cavan dövlətimizi tanımayıb və Məclisinə aralarından üzv də seçməyir.

Halbuki məqalə "Fəhlələr İttifaqları Şurası" üzvləri tərəfindən yazıldığına binaən [görə], bu qədər sui-təsir etdi [mənfi təsir göstərdi]. Çünki bunlar "hamı millətlər birdir" deyə danışmaqdadır. Böylə danışmasaydılar, yazdıqları məqalə insana ağır gəlməzdi. Bəhanə tutulan şeylərin birisi budur: "Azərbaycan Milli Komitəsinin və dövlətinin məqsədi Rusiyadan bilkülliyyə [tamamilə] ayrılmaqdır. Bu da siyasət və məişət cəhətcə Rusiyadan ayrılmaz bir parçadır. Hansı ki, cənguluq [müharibə tərəfdarlığı] olub, bila-fərqi-millətü-məzhəb [millət və məzhəb fərqi olmadan] fəhlələr məişətinə müğayirdir [ziddir]."

Bunların bu sözündən anlaşılan budur ki, gərək hər cür olsa Azərbaycan türkləri dövlət təşkil edib Rusiyadan ayrılmayaydı və nə tövr hərc-mərclik bu yerlərdə vaqe olsaydı da davam edəydilər [dözəydilər] və heç də danışmayaydılar. Mən bilməyirəm bu cənablar ki, beynəlmiləliyyətçi adını daşıyırlar, Azərbaycanda olan qarqaşalıq və nizamsızlıqlar kifayət etməyib, yenə bu fəqir-füqəranı təzədən hərc-mərclik bəlasına salmaq istəyirlərmi? Yox, dəxi bəsdir! Azərbaycan dövlətinin təşkili və ya Məclisi-Məbusanın qurulması, fəhlə məişət və əhvalına nə zərər verə bilər? Əvvəla, o vaxtdan ki, bizim dövlətimiz təşkil olunub və Azərbaycanı bolşevik və daşnaqların təzyiqindən xilas edib və bu səbəbə ümum vilayətdə asayiş bərpa olunub, fəhlələrə hansı zülm və cəbr olunubdur və ikinci[si], bir Məclisi-Məbusan ki, hələ fəhlə barəsində bir qanun təhti-qərara almamış, necə bunların məişət və əhvalına müğayir [zidd] bir iş edə bilər?

Mənim əsl məqsədim bunlara cavab yazmaqdan odur ki, əslində millətçi olub beynəlmiləliyyətçi maskasını taxanların (bu halda nə olduqları məlum olanların) işlətdikləri murdar "protest və boykot" sözlərinə heç bir müsəlman fəhləsi şərik olmayıb və olmaz da. Və ikinci[si], cənablar, cəmi fəhlələr seçilmişləri adından böylə bir məqalə qəzetəyə yazıb da qərəzi-şəxsiyyələrini [şəxsi qərəzlərini] meydana çıxarıb müsəlman fəhlələrinin vicdan və şərəfinə toxunar və onların Fəhlələr İttifaqlarının Şurasından ayrılmağına və nifrətinə səbəb olar.

Bir nəfər fəhlə

BAKI XƏBƏRLƏRİ

* Srağagün səhər saat 11 radələrində Gürcüstan Cümhuriyyəti siyasi nümayəndəsi N. Kartsivadze cənabları Azərbaycan Parlamanı müavini-rəisi Həsən bəy Ağayev həzrətlərini Məclisi-Məbusan güşadı [açılışı] ilə şəxsən təbrik etmişdir.

* Maarif Nəzarəti Hökumətdən altı vaqon yarım kağız almaq üçün 700 min rublə para istəmişdir.

* Müsəlman Cəmiyyəti-Xeyriyyəsi sədri İsmayıl bəy Xuramoviç Tiflisdən Bakıya varid olmuşdur [gəlmişdir]. İşbu zat Tiflisdə Qaçqınlar şöbəsi tərəfindən açılmış darüleytamın [yetimxananın] bağlanacağı ehtimalı barəsində məlumat alacaqdır.

* Kanuni-əvvəlin 10-dan etibarən təqsim [bölgü] məntəqələrindən, İngiltərə komandanlığı tərəfindən verilmiş düyü buraxılacaqdır. Adambaşı 1 girvənkə olaraq 3 rublə 50 qəpikdən satılmalıdır. Baha qiymətə almamaq tövsiyə edilir.

* Srağagün Ərzaq şöbəsi naminə iki vaqon buğda, üç vaqon arpa alınmışdır.

* Şəhər Ərzaq şöbəsi məzənnə öyrənməkdən ötrü öz təqsim şöbəsi müdirini Petrovsk, Teymurxanşura, Çuxuryurda göndərmişdir.

* "Neft cövhəri satanlar kəsbkarlar ittifaqı" sədri Fətulla Zeynalov əhalidən rica edir ki, ittifaq əzasından neft cövhərini 12 rublə 50 qəpikdən baha almasınlar. Bu cövhəri satanlar, cövhəri ittifaqın anbarından (1-ci paralelni soqaq, ev nömrə 46) 12 rubləyə alırlar.

ƏRZAQ İŞLƏRİ

* Tiflisə və Tazəşəhərə 10 min put neft cövhəri, 30 min put təzə neft, 1000 put benzin və 5 min put bəzi neft cövhəriyyatı aparmaq və ərzaq şeyləri ilə mübadilə etmək üçün Ərzaq Nəzarətindən icazənamə istəyirlər. Ərzaq Nəzarəti bu müraciətlərin mənfəətli olduğunu nəzərə alıb tezliklə sərəncam edilməsini Ticarət və Sənaye Nəzarətinin mübadilə komissiyasına yazıb xəbər vermişdir.

* Azərbaycan dəmiryolu (sabiq Zaqafqaz) ilə Bakıya ərzaq və mal gətirilməsini Ərzaq Nəzarəti sərbəst elan etdiyinə baxmayaraq, istasyon naçalnikləri onları tuturlar. Odur ki, Ərzaq naziri bu barədə təkrarən Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri cənablarına yazıb, naçalniklər[in] yükləri mümaniətsiz [maneəsiz] buraxmalarını xahiş edir.

* Azərbaycan (sabiq Zaqafqaz) dəmiryolu ilə ərzaq və istasyonlar müdirləri vəsiqəsiz buraxmalı olduqlarını Ərzaq Nəzarəti onlara yazıb məlum etmişdir.

* Ərzaq Nəzarətinin verdiyi vəsiqələrlə Quba nahiyəsindən gətirilən ərzağa, yerli hökumət məmurları mümaniət [maneəçilik] göstərməyib müavinət [kömək] göstərmələrini Ərzaq naziri yazıb Quba uyezd naçalnikinə xəbər verir.

* Bakıdan Zaqatal şəhərinə 54 put qənd, 15 put da çay, Zaqatal kooperativ cəmiyyəti ixtiyarına aparmaq üçün Məhəmməd Muradi Nurməhəmməd oğluna Ərzaq Nəzarəti vəsiqə verdi.

Lalayevin həbsi

Srağagün Lənkərandan gəlmiş vaporda təhərri [axtarış] polisi müdiri hüzurunda Stepan Lalayev 7 nəfər müsəlləh ermənilərlə həbs edilərək İngiltərə komandanlığına aparılmışdır.

GÜRCÜSTANDA

Daxiliyyə İşləri Nəzarəti katibi tərəfindən Tiflisdə nəşr olunan "Tiflisski listok" qəzetəsinə böylə bir məktub yazılmışdır:

"Znamya truda" qəzetəsinin 3 kanunu-əvvəl tarixli nömrəsində "Horizon"dan iqtibasla "Məhəlli mətbuat nümayəndələri Daxiliyyə vəziri [naziri] nəzdində" ünvanlı xəbər dərc edilmişdir. Bu xəbər doğru yazılmadığından və bir çox həqiqətlər gizlədilmiş oldu-ğundan, bu təkzibin dərcini xahiş edirəm.

Daxiliyyə naziri [N. V.] Ramişvili mətbuat nümayəndələrilə vaqe olan müşavirədə məzkur [deyilən] nümayəndələri Gürcüstan Cümhuriyyəti əleyhinə çıxıb, həmçinin millətlər arasında olan münasibatın kəskinləşməsinə bais olan qəzetələr haqqında Gürcüstan Hökumətinin qətnaməsi ilə aşına [tanış] etmişdir. Daxiliyyə naziri bu barədə azad mətbuat dairəsindən çıxan qəzetələri də bir-bir söyləmişdir. Daxiliyyə naziri "Qruziya" qəzetəsinin həmişəlik qapanıb çıxmayacağını söyləməmişdir. Nazir demişdir ki, Gürcüstan Hökuməti millətlər arasındakı münasibatın kəskinləşməsinə imkan verməyəcəkdir. Hərgah "Qruziya" qəzetəsi öz köhnə yolu ilə getsə, davam etməyəcəkdir.

Bu da doğru deyildir ki, "Horizon" qəzetəsi müdiri Nazaretyan guya demişdir ki, mətbuatı təzyiq altına alan köhnə qüvvələrin zühur etdiyini hiss edir. Nazaretyan öz bəyanatında ancaq bunu demişdir ki, mətbuatın hökumət tərəfindən təzyiq altına alındığını görür. Buna cavab olaraq nazir demişdir ki, hərgah hökumət mətbuat azadlığını məhdud bir hala salmaq istəsəydi, bütün mətbuat nümayəndələrinin hamısını birdən dəvət etməzdi və keçmiş zamanın tədbirlərini ittixaz edərdi [həyata keçirərdi].

Daxiliyyə naziri axırda demişdir ki, mən özüm hökumətin daxili və xarici siyasətinin tənqidi tərəfdarıyam. Bizim cümhuriyyətimiz dairəsində mətbuat nə qədər azad və qəzetə nə qədər çox olsa, hökumət öz istiqlaliyyətini bir o qədər asan surətdə mühafizə edə bilər. Siz bizim istiqlaliyyətimizi etiraf etməyə [qəbul etməyə] bilərsiniz. Biz də həmçinin köhnə qanunları etiraf etməyib [qəbul etməyib] onlarla mübarizədə idik. Lakin mən sizə hökumətin qətnaməsini xəbər verirəm ki, Gürcüstan Cümhuriyyətini qəbul etməyən qəzetələr bizim cümhuriyyətimiz dairəsində nəşr edilə bilməzlər. Çünki, heç bir hökumət buna imkan verə bilməz ki, onun istiqlaliyyət əsasları əleyhinə açıqdan-açığa təşviqat icra edilsin. İxtilaf çıxmasın deyə, mənim qəsdim sizləri xəbərdar etməkdir.

TEATRO VƏ MUSİQİ

Cümə günü rəbiüləvvəl ayının 9-unda (dekabrın 13-ündə) Azərbaycan Hökuməti Teatrında Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən müsəlman səhnəsində birinci dəfə olaraq "Qumarbaz" nam [adlı] təzə drama mövqeyi-tamaşaya qoyulacaqdır. Biletlər indidən teatrın kassasında satılmaqdadır.

Həkim Arşak Ayrapetoviç Akopyans

Əsəbi və daxiliyyə naxoşluğuna mübtəla olanları axşam saat 3-dən 6-ya kimi qəbul etməyə başlamışdır.

Ünvan: Balaxanski caddədə nömrə 10, İstanislavski caddənin küncündən 3-üncü ev. Telefon 55-26.

Arvad diş həkimi Z. A. Şexter xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

215

Diş həkimi B. L. Levin

Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni diş qayırır. Tsitsyanovski caddə nömrə 7, Qubernskinin küncündə.

Qəbul edir: 9-dan 2-yə kimi; 4-dən 7-yə kimi.

280

Doktor Samuil İzrailoviç Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Arvad diş həkimi
A. P. Matsiyevskaya

Naxoşları qəbul edir. Nikolayevski caddədə ev nömrə 33, Krasilnikovun evi. Telefon nömrə 45-90.

Qəbul edir saat 10-dan 2-yə kimi, 5-dən 7-yə kimi.

283

Doktor
Hacı Fəthullah Ağəəlizadə

Böyüklərin və uşaqların daxili mərəzlərinə müalicə edir. Xəstələri qəbul edir hər gün səhər saat 8-dən 10-adək və axşam saat 4-dən 7-yədək Şamaxı küçəsində, 14 nömrəli evdə.

Telefon nömrəsi 19-27.

289

Qabil diş qayıran
Mirzə Xəlil Canıbəyzadə

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

295 12 – 1

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Azərbaycan Məclisi-Məbusanında

"Mustafa bəy təklif edir…": Mustafa Mahmudov nəzərdə tutulur.

Teleqraf xəbərləri

"…sabiq imperatora Avstriyadan çıxması təklif ediləcəkdir.": I Karl Frans İosif nəzərdə tutulur.

Qəzetələrdən

"...Mineralnı mövqifi...": Mineralnıye Vodı stansiyası nəzərdə tutulur.

Bakı neft ticarəti və onun müxtəsərcə tarixi

"Barja", yaxud "barj": adətən yedəkdə çəkilən böyük yük gəmisi.

"Proteksionizm": yerli istehsal və xidmət sektorlarını dəstəkləmək məqsədi ilə dövlətin idxalata müəyyən məhdudiyyətlər tətbiq etməsi şəklində özünü göstərən xarici ticarət siyasəti.

Qadınların haqqı

"Bizi bütün bugünkü haqsızlıqlara sövq edən, ruhumuzda mündəmic xudkamlıqdır (altruiste). Qadın isə xilqətən digərkamdır (egoisme).": Burada "altruiste" və "egoisme" terminlərinin yeri səhv düşmüşdür. "Altruizm" [altruism]: Başqalarının xoşbəxtliyi üçün çalışmaqdan ibarət əxlaq prinsipi; "eqoizm"in ziddi.

"Eqoizm" [egoism]: insanın yalnızca şəxsi mənafeyini əsas tutmasından ibarət əxlaq prinsipi; "altruizm"in ziddi.

İdeal

"Görərək ağlamış idi Hacər": Qəzetdə "Hacər" yerinə səhvən "hacı" getmişdir. Şeirin bəzi misraların yerinə nöqtələr qoyulmuşdur.

"İdeal" şeiri üçün lüğət:

ixtiyar: yaşlı
bəstər: yataq
müztərib: iztirab içində
təvafi-Kəbə: ibadət məqsədi ilə Kəbənin ətrafında dövrə vurmaq
hüccac: hacılar
kar: iş
giriftar olmaq: tutulmaq; düçar olmaq
Zəmzəm: Məkkədəki müqəddəs su quyusu
Həcər (həcərüləsvəd): Kəbə divarındakı müqəddəs "qara daş"
dəm: an
səm: zəhər, ağu
nuri: nurdan yaranmış; nura məxsus
Zöhrə: Venera planeti
huri: cənnət qızı
mühat: əhatə olunmuş
növşüküftə: təzə açılmış
təşbeh: bənzərlik
hüsni-mütləq: mütləq gözəllik
asimani: səmaya məxsus, səmavi
aşinayi-xəyal: xəyala həmdəm olan
Beytullah: Allahın evi, Kəbə
Hacər: İsmayıl peyğəmbərin anası
cuyi-qüdrət-əsər: qüdrətdən yaradılmış su mənbəyi
suzişli: yanıqlı
qayeyi-amal: arzuların məqsədi, qayəsi